## Rübailər

◆**Vaqif Osmanov**

İnsana gərəkdir pələng cəldliyi,
Çiçək incəliyi, qaya sərtliyi.
Şüurlu insanda tapılmır, vallah,
Qayalara sadiq mamır mərdliyi.

Qəbristanda gör nə qədər adam yatır,
Babam, nənəm, anam, bacım, atam yatır.
Ziyarəti doğmaların ruhu duyur,
Elə bilmə ordakılar müdam yatır.

Sən ki,saray görməmişdin, zalım oğlu,
Şah bağına girməmişdin, zalım oğlu.
Bəy tərifi görmüşdün sən toy - mağarda,
Şaha tərif hörməmişdin, zalım oğlu.

Rübain bal dadır, ey Ömər Xəyyam,
Fikrin tərbiyədir, bilikdir tamam.
Meyxana bar olub, xidmət başqadı,
İndi dəyişibdi zəmanə, əyyam.

Sağlam bir mühitdə doğular şeir,
Havasız sarayda boğular şeir.
Şairlər millətin çörəkçisidir,
Xalqın dərd - sərindən yoğrular şeir.

Müəllim ərəbcə "öyrədən" demək,
Öyrətmək, öyrənmək - müqəddəs əmək.
Şagirddən təmənna uman müəllim,
Bədbəxt dilənçidir, dilənir yemək.

Bulaqların qaynar gözü iylənməz,
Duyan ürəklərdə vicdan piylənməz.
Vətənində düşmən atı gəzən kəs,
Qayğısız gözəllə barda əylənməz.

Ağıllı seçici, uyma bütlərə,
Küt alət olmayaq harın kütlərə.
Qanunlar yazanlar xalqını sevsə,
Bölünmərik varlı - yoxsul cütlərə.

## Yüreğimi Nara Yaktım

◆**Ahmet Erener**

Gözün gözlerime değdi bir kere
Tutuştu yüreğim kül olsun varsın
İstemem iy'olsun açtığın yara
Ellerin değince gül olsun varsın

Saçının telini alıp sakladım
Gece gündüz sen bilerek kokladım
Gündüz hayal gece düşte bekledim
Yerinde esenler yel olsun varsın

Mavi bulutlara baktım ağladım
Yüreğimi nara yaktım dağladım
Bir damla koyup ta mektup yolladım
Bilsen gözyaşlarım sel olsun varsın

Temiz sana olan her bir niyetim
Söyle var mı ödenecek diyetim
Her gün artıyorken sana hasretim
Dünyadan uzaya yol olsun varsın

Gerek var mı ölmek için talime
Ölürsün verdiysen gönül zalime
Değmeyin dostlarım bugün telime
Baktığım gördüğüm çöl olsun varsın

İçimde kalmadı yurt ile yerin
Kalmadı anlamı artık sözlerin
Benim için bakmaz ise gözlerin
Ayrılık şarabı bal olsun varsın